Azərbaycan Qiymətləndiricilər Palatası (AQP)
Metodiki tövsiyə

METODOLOGİYA

Vergi məqsədləri üçün qiymətləndirmə və vergi nəzarəti tədbirlərində ekspert (mütəxəssis) rəyləri üzrə Metodologiya

Sənəd Azərbaycan Qiymətləndiricilər Palatasının üzvü olan qiymətləndiricilər üçün nəzərdə tutulub. O, əmlak vergisi, əməliyyatların vergi bazası və transfer qiymətləri ilə bağlı qiymətləndirmə tapşırıqlarının, habelə qiymətləndiricinin vergi nəzarəti tədbirlərinə ekspert və ya mütəxəssis qismində cəlb edildiyi işlərin (istehsal həcminin müəyyən edilməsi və onun pul ifadəsi, əsas vəsaitlərin dəyərinin müəyyən edilməsi) yerinə yetirilməsi qaydasını, vergi anlayışları ilə qiymətləndirmə anlayışları arasındakı sərhədi və qiymətləndiricinin səlahiyyət hüdudunu müəyyən edir.

1. Ümumi müddəalar

1.1. Metodologiya vergi öhdəliyinin müəyyən edilməsi ilə bağlı aşağıdakı tapşırıqlara şamil edilir:

1.1.1. əmlak və torpaq vergisi üzrə qiymətləndirmə, o cümlədən müəssisəyə məxsus əsas vəsaitlərin bazar dəyərinin və ya vergi məqsədləri üçün tələb olunan digər dəyərinin müəyyən edilməsi;

1.1.2. əməliyyatların vergi bazasının müəyyən edilməsi üçün malların (işlərin, xidmətlərin) bazar qiymətinin müəyyən edilməsi;

1.1.3. transfer qiymətləri üzrə müstəqil qiymətləndirmə;

1.1.4. səyyar vergi yoxlaması zamanı qiymətləndiricinin ekspert (Vergi Məcəlləsinin 44-cü maddəsi) və ya mütəxəssis (Vergi Məcəlləsinin 45-ci maddəsi) qismində cəlb edilməsi, o cümlədən yoxlama dövrü üzrə müəssisənin istehsal həcminin müxtəlif metodlarla müəyyən edilməsi və hesablanmış həcmin pul ifadəsində əks etdirilməsi;

1.1.5. operativ vergi nəzarəti və xronometraj müşahidəsi (Vergi Məcəlləsinin 50 və 50-1-ci maddələri), habelə sənəd və əşyaların nümunə kimi götürülməsi (Vergi Məcəlləsinin 43.6-cı maddəsi) zamanı mütəxəssis köməyi;

1.1.6. vergi borcunun məcburi qaydada alınması zamanı həbs edilmiş əmlakın satışı üçün qiymətləndirmə (Vergi Məcəlləsinin 90.3-cü maddəsi);

1.1.7. inzibati şikayət və məhkəmə mərhələsində əvvəllər verilmiş ekspert (mütəxəssis) rəyinin və ya qiymətləndirmə hesabatının peşəkar baxışı.

1.2. Metodologiya aşağıdakı sənədlərlə birlikdə tətbiq olunur:

- "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (08.12.2023, № 1052-VIQ), o cümlədən 4.1-ci (qiymətləndirmə istiqamətləri), 8.1-ci (məcburi qiymətləndirmə), 9.1-ci (müqavilənin məzmunu) və 10-cu (hesabat) maddələri;
- Azərbaycan Respublikasının Vergi Məcəlləsi (bundan sonra "VM"), o cümlədən 14-cü (bazar qiyməti), 41-48-ci (baxış, sənədlərin tələb edilməsi, nümunələrin götürülməsi, ekspertiza, mütəxəssisin dəvət edilməsi, tərcüməçinin və şahidlərin iştirakı, protokola dair ümumi tələblər), 49-cu (yoxlamanın nəticələri üzrə qərar), 50 və 50-1-ci (operativ vergi nəzarəti, xronometraj), 67-ci (vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən

edilməsi qaydası), 69-cu (xarici valyutanın manata çevrilməsi), 90.3-cü və 196-202-ci (əmlak vergisi) maddələri;

- transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydaları;
- Beynəlxalq Qiymətləndirmə Standartları (IVS 101, IVS 102, IVS 103, IVS 104, IVS 105, IVS 106);
- İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının transfer qiymətləri üzrə təlimatı;
- Palatanın daşınmaz əmlak, maşın və avadanlıq, müəssisələr, ehtiyatlar, qeyri-maddi aktivlər, bazar təhlili və məlumatın toplanması metodologiyaları, metodiki göstəricilər bazası və Palatanın dövri indeksləri.

1.3. Metodologiya tövsiyə xarakteri daşıyır. Vergi orqanı ilə razılaşdırıldıqdan sonra Palata onun 5, 7, 8, 9, 13, 14 və 16-cı bölmələrinin vergi nəzarəti tədbirlərinə ekspert və ya mütəxəssis qismində cəlb edilən üzvlər üçün məcburi tətbiqi barədə qərar qəbul edə bilər.

1.4. Metodologiya vergi hüququ məsələlərini həll etmir. Vergi öhdəliyinin müəyyən edilməsi, güzəştlərin tətbiqi, vergi bazasının seçilməsi, maliyyə sanksiyalarının və faizlərin hesablanması vergi orqanının (Vergi Məcəlləsinin 49-cu maddəsi), mübahisə hallarında isə məhkəmənin səlahiyyətindədir. Qiymətləndirici yalnız ona qoyulmuş suallar daxilində və xüsusi biliyi hüdudunda nəticə verir (Vergi Məcəlləsinin 44.1-ci maddəsi).

1.5. Metodologiyada istifadə olunan anlayışlar:

1.5.1. vergi bazası: vergi qanunvericiliyi ilə müəyyən edilən və verginin hesablandığı kəmiyyət;

1.5.2. bazar qiyməti (vergi mənasında): Vergi Məcəlləsinin 14-cü maddəsində müəyyən edilmiş qaydada eyni və ya oxşar mal, iş və xidmətlər üzrə formalaşan qiymət;

1.5.3. bazar dəyəri (qiymətləndirmə mənasında): qiymətləndirmə standartları ilə müəyyən edilən dəyər bazası;

1.5.4. inzibati göstəricilər: normativ qiymət, kadastr qiyməti, zona əmsalları, şərti bal, uçot qalıq dəyəri, vergi amortizasiyası və digər hesablama vahidləri;

1.5.5. əlaqəli şəxslər: vergi qanunvericiliyinin müəyyən etdiyi meyarlar üzrə qarşılıqlı asılı olan şəxslər;

1.5.6. qol uzunluğu prinsipi: əlaqəli şəxslər arasındakı əməliyyatın şərtlərinin müstəqil şəxslər arasındakı şərtlərlə eyni olması tələbi;

1.5.7. müqayisəlilik: əməliyyatların funksiyalar, aktivlər, risklər, müqavilə şərtləri, bazar və iqtisadi şərait üzrə uyğunluğu;

1.5.8. qol uzunluğu diapazonu: müstəqil əməliyyatlardan alınan göstəricilərin diapazonu;

1.5.9. ekspert: Vergi Məcəlləsinin 44-cü maddəsinə uyğun olaraq səyyar vergi yoxlamasında müqavilə əsasında cəlb edilən, ekspertiza aparan və öz adından rəy verən şəxs;

1.5.10. mütəxəssis: Vergi Məcəlləsinin 45-ci maddəsinə uyğun olaraq səyyar vergi yoxlamasının aparılmasına kömək göstərmək üçün müqavilə əsasında dəvət edilən, yazılı rəyi vergi yoxlaması aktına əlavə edilən şəxs;

1.5.11. rəy: ekspertin rəyi və ya mütəxəssisin yazılı rəyi; bu Metodologiyada hər ikisi "rəy" adlanır;

1.5.12. yoxlama dövrü: vergi yoxlaması ilə əhatə olunan dövr;

1.5.13. istehsal həcmi: yoxlama dövründə istehsal edilmiş hazır məhsulun çeşidlər üzrə natural ifadədə (ədəd, ton, litr, kubmetr və s.) miqdarı;

1.5.14. monitorinq (sınaq-ölçmə işləri): istehsal prosesinin müəyyən müddətdə müşahidəsi və ölçülməsi yolu ilə məhsul vahidinə sərf edilən resursun müəyyən edilməsi;

1.5.15. xüsusi sərf: məhsul vahidinə sərf edilən elektrik enerjisinin, yanacağın, xammalın, materialın, qablaşdırmanın, suyun və ya digər resursun miqdarı;

1.5.16. qeyri-istehsal sərfi: istehsal prosesi ilə bağlı olmayan ehtiyaclara (işıqlandırma, isitmə, inzibati binalar, mühafizə, anbarlar, soyuducu kameralar, boş işləmə) sərf edilən resurs;

1.5.17. təbii itki: saxlanma və daşınma zamanı malın fiziki-kimyəvi xassələri ilə bağlı normativ itki; istehsal itkisi: texnoloji proses zamanı yaranan qaçılmaz itki və tullantı;

1.5.18. uçotda əks olunmayan istehsal: hesablanmış istehsal həcmi ilə vergiödəyicisinin uçotunda əks olunmuş istehsal həcmi arasındakı müsbət fərq;

1.5.19. pul ifadəsi: natural ifadədə müəyyən edilmiş istehsal (satış) həcminin bu Metodologiyanın 8-ci bölməsinə uyğun seçilmiş qiymətlə dəyər ifadəsi;

1.5.20. arifmetik vergi hesablaması: vergi orqanının sualı ilə, Vergi Məcəlləsində göstərilən düstur və dərəcə tətbiq edilməklə aparılan hesablama; hüquqi nəticə deyil (15.3-cü bənd).

2. Qiymətləndiricinin vergi münasibətlərində rolları

2.1. Vergi məqsədli tapşırıqlar bir-birindən ayrılır. Onların qarışdırılması nəticənin vergi münasibətlərində istifadə edilməsini qeyri-mümkün edir:

Rol	Hüquqi əsas	Kim cəlb edir	Ölçülən kəmiyyət	Nəticənin forması
A. Əmlak və torpaq vergisi	VM 196-202; torpaq vergisi müddəaları	Vergiödəyicisi və ya vergi orqanı	Bazar dəyəri və ya qanunun tələb etdiyi digər dəyər	Dəyər göstəricisi, inzibati göstərici ayrıca
B. Əməliyyatın vergi bazası	VM 14	Vergiödəyicisi və ya vergi orqanı	Əməliyyatın bazar qiyməti	Qiymət göstəricisi, ƏDV rejimi ilə
C. Transfer qiymətləri	Transfer qiymətləri müddəaları və qaydaları	Vergiödəyicisi	Qol uzunluğu prinsipinə uyğunluq göstəricisi	Diapazon və ya nöqtə göstəricisi
D. Ekspert	VM 44	Yoxlamanı aparan vergi orqanının qərarı, müqavilə	Qərarda qoyulmuş suallar: istehsal həcmi, bazar qiyməti, əmlakın dəyəri	Ekspertin öz adından imzaladığı rəy
E. Mütəxəssis	VM 45	Vergi orqanının rəhbəri və ya müavini, müqavilə	Müqavilədə göstərilmiş suallar	Yazılı rəy, yoxlama aktına əlavə edilir
F. Operativ nəzarət və xronometraj	VM 43.6, 50, 50-1	Vergi orqanı	Müşahidə və ölçmə nəticələri	Akt, rəy
G. Həbs edilmiş əmlak	VM 90.3	Vergi orqanı	Bazar dəyəri	Qiymətləndirmə hesabatı

2.2. Hər rolda qiymətləndirici kəmiyyəti ölçür. Vergi bazasının seçilməsi, verginin hesablanması, vergi öhdəliyi barədə qərar və sənədləşdirmənin tamlığı vergi ödəyicisinin və vergi orqanının səlahiyyətindədir.

2.3. Qiymətləndirmə hesabatı ilə rəy arasında münasibət. Əmlakın bazar dəyərinin və ya malın bazar qiymətinin müəyyən edilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun 4.1-ci maddəsində göstərilən istiqamətlər üzrə qiymətləndirmə fəaliyyətidir və onun nəticəsinə Qanunun 10-cu maddəsinin tələbləri tətbiq olunur. İstehsal həcminin natural ifadədə müəyyən edilməsi texnoloji tədqiqatdır; burada qiymətləndirici Vergi Məcəlləsinin 44 və ya 45-ci maddəsi üzrə ekspert və ya mütəxəssis qismində çıxış edir. Həcmin pul ifadəsi yenidən qiymətləndirmə sərištəsinə aiddir.

3. Vergi anlayışı ilə qiymətləndirmə anlayışı arasındakı sərhəd

3.1. Vergi qanunvericiliyindəki "bazar qiyməti" və qiymətləndirmə standartlarındakı "bazar dəyəri" fərqli anlayışlardır. Onlar praktikada yaxın nəticə verə bilər, lakin eyni deyil:

Meyar	Bazar qiyməti (vergi mənasında)	Bazar dəyəri (qiymətləndirmə mənasında)
Mənbəyi	Vergi Məcəlləsinin 14-cü maddəsi	Qiymətləndirmə standartları
Predmeti	Konkret mal, iş və ya xidmətin qiyməti	Aktiv üzrə hüququn dəyəri
Müqayisə obyekti	Eyni və ya oxşar mal, iş və xidmətlər	Müqayisə oluna bilən aktivlər
Düzəlişlər	14.6 və 14.6.1-ci maddələrdə göstərilən amillər üzrə	Müqayisə elementləri üzrə tam sistem
Nəticənin statusu	Vergi bazasının elementi	Qiymətləndirmə nəticəsi
Kim müəyyən edir	Vergi ödəyicisi və vergi orqanı, mübahisədə məhkəmə; 14.6.3.3 üzrə ekspert rəyi əsasında	Qiymətləndirici

3.2. Vergi Məcəlləsinin 14.6-cı maddəsinə görə 14.4 və 14.5-ci maddələrin tətbiqi mümkün olmadıqda bazar qiyməti 14.6-cı maddənin tələblərinə uyğun müəyyən edilir. Bu zaman malın istehsalına və ya təqdim edilməsinə çəkilən adi xərclər (alış qiyməti və ya qalıq dəyəri), daşınma, saxlama, sığorta və digər xərclər, habelə tələb və təklif amillərini nəzərə alan, asılı olmayan şəxslər arasındakı əməliyyatlar üçün adi olan əlavələr və güzəştlər nəzərə alınır; güzəştlər malın keyfiyyətini və ya digər istehlak xassələrini itirməsi, yararlılıq müddətinin bitməsi (bitməyə yaxınlaşması) və digər oxşar hallarda da nəzərə alınır.

3.3. Qiymətə təsir edə bilən amillər Vergi Məcəlləsinin 14.6.1-ci maddəsində sadalanır (o cümlədən 14.6.1.1: göndərilən malın, görülən işin, göstərilən xidmətin həcmi və mal partiyasının həcmi). Rəydə 14.6.1-ci maddənin hər bir yarımbəndi üzrə ayrıca qeyd verilir: "nəzərə alınıb, düzəliş belədir", "təsiri yoxdur, səbəbi belədir" və ya "məlumat yoxdur, nəticəyə təsiri belədir".

3.4. Vergi Məcəlləsinin 14.6.3-cü maddəsi bazar qiymətinin müəyyən edilməsi üçün istifadə edilə bilən qiymətləndirmə üsullarını sadalayır. 14.6.3.3-cü maddəyə görə malların (işlərin, xidmətlərin) bazar qiymətləri müqavilə əsasında cəlb edilmiş ekspert tərəfindən ekspert rəyinə əsasən müəyyənləşdirilir. Qiymətləndirici rəyində hansı üsulu tətbiq etdiyini və onun seçilməsinin səbəbini göstərir.

3.5. Qiymətləndirici hansı anlayışı ölçdüyünü hesabatın (rəyin) birinci səhifəsində göstərir. Ölçülən kəmiyyət qiymətləndirmə standartları üzrə bazar dəyəridirsə, nəticənin adı "bazar dəyəri"dir; Vergi Məcəlləsinin qaydası ilə müəyyən edilmiş qiymətdirsə, nəticə həmin normaya istinadla adlandırılır. İki adın birləşdirilməsi yolverilməzdir.

3.6. Qiymətləndirmə nəticəsi vergi bazası deyil. O, vergi bazasının müəyyən edilməsi üçün istifadə oluna bilən giriş məlumatıdır. Vergi bazasının və ya vergi məbləğinin arifmetik hesablanması yalnız 15.3-cü bənddə göstərilən şərtlərlə aparılır.

3.7. Vergi orqanının və ya vergi ödəyicisinin gözləntisinə uyğunlaşdırılmış nəticə qiymətləndirmə sayılmır və intizam pozuntusudur.

4. İnzibati göstəricilərlə sərhəd

4.1. Vergi münasibətlərində bir neçə inzibati göstərici paralel işləyir. Onların heç biri bazar dəyəri deyil və bir-birini əvəz etmir:

Göstərici	Mənbəyi	Hüquqi funksiyası	Qiymətləndirmə ilə əlaqəsi
Torpağın normativ qiyməti	Müvafiq icra hakimiyyəti orqanının aktı	Vergi və digər ödənişlərin hesablanması	Bazar dəyəri deyil, nəticə kimi verilə bilməz
Kadastr qiyməti	Dövlət kadastr sistemi	İnzibati uçot və hesablamalar	Giriş məlumatı kimi göstərilə bilər
Zona əmsalları	Normativ aktlar	Ərazi üzrə differensiasiya	Bazar zonalaşdırması ilə eyniləşdirilmir
Şərti maliyyə vahidi və ballar	Normativ aktlar	Hesablama vahidi	Dəyər göstəricisi deyil
Uçot qalıq dəyəri	Mühasibat uçotu	Əmlak vergisinin bazası (VM 201.1, 202)	Ölçmə nəticəsi deyil
Vergi amortizasiyası	Vergi qanunvericiliyi	Amortizasiya ayırmalarının hesablanması	Köhnəlmə ilə eyni deyil
Sığorta məbləği	Sığorta müqaviləsi	VM 201.1.1 üzrə bazar dəyərinə keçid şərti	Bazar dəyəri deyil

4.2. Vergi amortizasiyası normativ hesablama qaydasıdır və aktivin faktiki vəziyyətini əks etdirmir. Köhnəlmə isə obyektin fiziki, funksional və iqtisadi vəziyyətinin ölçülməsidir. Vergi amortizasiyasının köhnəlmə kimi tətbiqi metodoloji səhvdir.

4.3. Vergi Məcəlləsinin 202.1.1-ci maddəsinə görə əsas vəsaitlərin yenidən qiymətləndirilməsindən yaranan artım əmlak vergisinin bazası hesablanarkən nəzərə alınmır. Maliyyə hesabatlılığı üçün aparılmış yenidən qiymətləndirmənin nəticəsi əmlak vergisinin bazası kimi təqdim edilmir.

4.4. Qiymətləndirici inzibati göstəricini təsdiq etmir, onun düzgünlüyü barədə rəy vermir və onu bazar dəyəri kimi təqdim etmir. Eyni zamanda bazar dəyəri də vergi bazası kimi təqdim edilə bilməz.

4.5. İnzibati göstərici ilə bazar dəyəri arasındakı fərq mübahisə predmeti olduqda qiymətləndirici hər iki göstəricini ayrıca göstərir və fərqin mənbəyini izah edir, hansının tətbiq edilməsi barədə nəticə vermir.

5. Ekspert və mütəxəssis qismində cəlb olunma

5.1. Hüquqi rejim. Vergi Məcəlləsi ekspert və mütəxəssis üçün fərqli prosessual rejim müəyyən edir:

Element	Ekspert (VM 44)	Mütəxəssis (VM 45)
Cəlb edilmə əsası	Səyyar vergi yoxlamasında yaranan məsələlərin izahı üçün xüsusi bilik tələb olunduqda (44.1)	Səyyar vergi yoxlamasında vergi orqanının sahəsindən kənar xüsusi bilik və təcrübə tələb olunduqda (45.1)
Rəsmiləşdirmə	Yoxlamanı bilavasitə aparan vergi orqanının qərarı: əsaslar, ekspertin adı, suallar, təqdim edilən materiallar (44.3); müqavilə (44.1)	Vergi orqanının rəhbəri və ya müavini tərəfindən dəvət; müqavilə: vəzifələr, suallar, bilə-bilə yanlış rəyə görə məsuliyyət (45.3)
Sərištə tələbi	Suallar və rəy ekspertin xüsusi biliyi hüdudunda olmalıdır (44.1)	Müvafiq xüsusi bilik; nəticədə marağın olmaması; tələblərə cavab verməyən mütəxəssisin rəyindən istifadə edilə bilməz (45.2)
Hüquqları	Ekspertiza predmetinə aid yoxlama materialları ilə tanış olmaq, əlavə material tələb etmək (44.4)	Müqavilə ilə müəyyən edilir
İmtina	Suallar xüsusi biliyindən kənardırsa və ya materiallar yararsızdır, yaxud kifayət deyilsə rəy verməkdən imtina edir (44.5)	Müqavilədə nəzərdə tutulur
Rəyin forması	Öz adından imzalanır; aparılmış tədqiqat, nəticələr və suallara əsaslandırılmış cavablar; sualda olmayan, lakin əhəmiyyətli hallar da göstərilə bilər (44.8)	Yazılı və imzalanmış rəy; vergi yoxlaması aktına əlavə edilir (45.4)
Vergiödəyicisinin hüquqları	Etiraz, ekspert namizədi təklif etmək, əlavə suallar, ekspertizada iştirak, rəylə tanışlıq (44.7); rəyin surəti, izahat, etiraz, əlavə və ya təkrar ekspertiza tələbi (44.9)	Rəylə razılaşmadıqda yoxlama aktında qeyd (45.5)
Əlavə və təkrar tədqiqat	Rəy aydın və ya tam olmadıqda əlavə, əsassız və şübhəli olduqda başqa ekspertə təkrar ekspertiza (44.10)	Əlavə və ya təkrar ekspertiza hüququ
Məsuliyyət	Müqavilə və qanunvericilik	Səhv və ya bilə-bilə yanlış rəylə vurulan zərər mülki qaydada ödənilir (45.6)

5.2. Seçim meyarları. Vergi nəzarəti tədbirlərində bazar qiymətini və əmlakın dəyərini müəyyən edən şəxsin aşağıdakı meyarlara cavab verməsi tövsiyə olunur:

- Palatanın üzvü olmaq və müvafiq istiqamət üzrə ixtisas şəhadətnaməsinə malik olmaq;
- müvafiq istiqamət üzrə azı üç illik peşə təcrübəsi;
- istehsal həcminin müəyyən edilməsi üçün sahə üzrə texnoloji sərištə (ali texniki təhsil, sahədə iş təcrübəsi və ya təsdiq edilmiş xüsusi təlim) və ya 5.4-cü bənddə göstərilən kompleks qrupun tərkibində işləmək;

- maraqlar toqquşmasının olmaması: son üç il ərzində vergiödəyicisinə və onun əlaqəli şəxslərinə qiymətləndirmə, audit, mühasibat və ya məsləhət xidməti göstərməmək, vergiödəyicisində iştirak payı, əmək və qohumluq münasibəti olmamaq;
- Palatanın intizam qaydasında tətbiq edilmiş qüvvədə olan tənbehinin olmaması.

5.3. Tapşırığın qəbulu. Qiymətləndirici tapşırığı qəbul etməzdən əvvəl:

5.3.1. vergi orqanının qərarının (44.3) və ya müqavilənin (45.3) surətini alır, qoyulmuş sualları yazılı təhlil edir;

5.3.2. hüquqi xarakterli sualları (vergi öhdəliyinin məbləği, vergiödəyicisinin təqsiri, əməliyyatın hüquqi təsnifatı, sanksiyalar) qəbul etmir və onların yenidən tərtib edilməsini təklif edir (E əlavəsi);

5.3.3. səriştəsini yoxlayır; sual xüsusi biliyindən kənardırsa bunu yazılı bildirir və ya kompleks qrupun yaradılmasını təklif edir;

5.3.4. təqdim edilmiş materialların kifayətliyini qiymətləndirir, əlavə materialları yazılı tələb edir (44.4);

5.3.5. monitorinqin aparılma imkanını, müddətini və iştirakçılarını müəyyən edir;

5.3.6. maraqlar toqquşmasının olmaması barədə yazılı bəyanat verir;

5.3.7. müqavilənin D əlavəsində göstərilən şərtləri ehtiva etdiyini yoxlayır.

5.4. Kompleks ekspert qrupu. İstehsal həcminin müəyyən edilməsi iki mərhələdən ibarətdir: məhsulun fiziki həcminin texnoloji məlumatlar əsasında müəyyən edilməsi və nəticənin pul ifadəsinə çevrilməsi. Birinci mərhələ sahə texnoloqunun (mühəndisin, energetikin), ikinci mərhələ qiymətləndiricinin səriştəsinə aiddir. Qiymətləndiricinin sahə üzrə texnoloji səriştəsi təsdiq edilmədikdə kompleks qrup yaradılır: hər üzv öz bölməsini imzalayır, rəhbər ekspert rəyin bütövlüyünə və bölmələrin uzlaşdırılmasına cavabdehdir. Qrupun tərkibi və hər üzvün cavabdeh olduğu suallar rəyin giriş hissəsində göstərilir.

5.5. Vergiödəyicisi ilə münasibət. Qiymətləndirici vergiödəyicisi ilə yalnız vergi orqanının iştirakı ilə və ya onun razılığı ilə ünsiyyət qurur. Vergiödəyicisinin ekspertizada iştirak hüququ (44.7.4) təmin edilir: monitorinqdə onun nümayəndəsi iştirak edir, akt onun tərəfindən imzalanır, imzadan imtina aktda qeyd edilir. İlkin nəticələr vergi orqanı vasitəsilə vergiödəyicisinə təqdim edilərək izahat vermək imkanı yaradılması tövsiyə olunur; verilmiş izahatlar rəydə əks olunur, qəbul və ya rədd edilməsinin səbəbi göstərilir.

5.6. Əlavə və təkrar ekspertiza. Rəyin işçi sənədləri (hesablama cədvəlləri, aktlar, fotoşəkillər, mənbə çıxarışları) başqa ekspertin hesablamanı tam təkrarlaya biləcəyi həcmdə saxlanılır. Təkrar ekspertizaya cəlb edilmiş qiymətləndirici əvvəlki rəyin hər bir nəticəsinə münasibət bildirir: razılaşdığı və razılaşmadığı hissələri, fərqin səbəbini və onun kəmiyyətini göstərir.

5.7. Konfidensiallıq. Tapşırıq zamanı əldə edilmiş məlumat vergi sirri, kommersiya sirri və fərdi məlumatların qorunması rejimində istifadə olunur, yalnız tapşırığın məqsədləri üçün işlənir və üçüncü şəxslərə verilmir. İşçi sənədlər vergi yoxlamasının nəticələri üzrə mübahisə başa çatanadək, lakin qanunvericiliklə müəyyən edilmiş müddətdən az olmayaraq saxlanılır.

6. Tədqiqatın mərhələləri

6.1. Ekspert (mütəxəssis) tədqiqatı aşağıdakı ardıcıllıqla aparılır:

№	Mərhələ	Məzmun	Nəticə sənədi
1	Tapşırığın təhlili	Sualların, səriştənin, maraqlar toqquşmasının yoxlanılması (5.3)	Qəbul qeydi, sualların dəqiqləşdirilməsi təklifi
2	Sənəd və məlumatın toplanması	7.2-ci bənddəki siyahı üzrə	Sənədlərin reyestri, əlavə material sorğusu
3	Obyektə baxış	Avadanlıq, texnoloji axın, sayğaclar, anbarlar	Baxış qeydi, fotoşəkillər, avadanlıq kartları (G əlavəsi)
4	Rəsmi məlumat sorğuları	Elektrik, qaz, su təchizatçıları, Əmlak Məsələləri Dövlət Xidməti, gömrük, statistika	Sorğular və cavablar (13.2)
5	Monitorinq	Çeşidlər üzrə xüsusi sərfin ölçülməsi (7.4)	Monitorinq aktı (F əlavəsi), fotoşəkillər
6	Hesablama	Ən azı iki müstəqil metod (7.5)	Hesablama cədvəlləri (elektron, düsturlarla)
7	Uzlaşdırma	Metodların müqayisəsi, ən ehtimallı qiymət və diapazon (7.9)	Uzlaşdırma cədvəli
8	Pul ifadəsi	Çeşid və dövrlər üzrə (8-ci bölmə)	Pul ifadəsi cədvəli
9	İlkin nəticələrin müzakirəsi	Vergi orqanı vasitəsilə vergiödəyicisinin izahatı (5.5)	İzahatlar və onlara münasibət
10	Rəyin tərtibi	14-cü bölmənin strukturu üzrə	Rəy və əlavələri
11	Rəydən sonrakı mərhələ	Əlavə suallara cavab, izahat, təkrar ekspertizada iştirak	Əlavə rəy və ya izahat

7. İstehsal həcminin müəyyən edilməsi

7.1. Əsas prinsiplər

7.1.1. İstehsal həcmi iki mərhələdə müəyyən edilir: əvvəlcə natural ifadədə fiziki həcm, sonra onun pul ifadəsi (8-ci bölmə). Mərhələlər rəyin ayrı-ayrı bölmələrində göstərilir.

7.1.2. Həcm ən azı iki müstəqil metodla müəyyən edilir. Metodlar o zaman müstəqil sayılır ki, fərqli resurs növünə və fərqli məlumat mənbəyinə əsaslansın (məsələn, elektrik enerjisi sərfi və əsas xammal balansı). Yalnız bir xammal üzrə hesablama yolverilməzdir: nəticə enerji sərfi ilə və kalkulyasiya sənədlərində göstərilən digər xammal və materialların həcmi ilə tutuşdurulur.

7.1.3. Həcm hər çeşid üzrə ayrıca müəyyən edilir. Çeşidlər çox olduqda oxşar texnologiya və resurs sərfi olan çeşidlər qruplaşdırıla bilər; qruplaşdırmanın əsası göstərilir.

7.1.4. Nəticə müvafiq vergilərin hesabat dövrləri (ay, rüb, il) üzrə bölünür.

7.1.5. Nəticə ən ehtimallı qiymət və əsaslandırılmış diapazon şəklində verilir.

7.1.6. Hər bir göstəricinin mənbəyi göstərilir; mənbəyi bəlli olmayan məlumatdan istifadə edilmir.

7.1.7. Hesablamalar təkrarlana bilən formada aparılır: elektron cədvəl düsturlarla rəyə əlavə edilir, rəydə isə hər hesablamanın düsturu və rəqəmləri göstərilir.

7.2. İlkin məlumat

7.2.1. Vergiödəyicisindən və digər mənbələrdən aşağıdakı sənəd və məlumat tələb edilir:

- istehsal hesabatları, anbar kartları, material hesabatları, hazır məhsulun mədaxil və məxaric sənədləri;
- kalkulyasiya kartları, texnoloji reqlamentlər, reseptlər, xammal və material sərfi normaları;
- xammal və material alışı üzrə elektron qaimə-fakturalar, gömrük bəyannamələri (VM 67.1.6);
- satış sənədləri: elektron qaimə-fakturalar, ƏDV elektron hesab-fakturaları, kassa çekləri;
- elektrik enerjisi, qaz və su təchizatçılarının aylıq hesabları, sayğacların pasportları və göstəriciləri, cərəyan transformatorlarının əmsalları;
- avadanlığın texniki pasportları, istismara verilmə aktları, əsas vəsaitlərin inventar kartları;
- əmək vaxtının uçotu cədvəlləri, növbə qrafikləri, işçilərin sayı, təmir və dayanma jurnalları;
- yol vərəqələri, əmtəə-nəqliyyat qaimələri, çəki körpüsünün qeydləri;
- inventarizasiya aktları, silinmə və zay aktları, tullantıların təhvil sənədləri;
- bank hesabları üzrə hərəkət (VM 67.1.7), əvvəlki dövrlərin vergi bəyannamələri (VM 67.1.1), əvvəlki yoxlama aktları.

7.2.2. Təqdim edilməyən sənədlər rəydə sadalanır və onların olmamasının nəticəyə təsiri göstərilir.

7.3. Avadanlıq və texnologiyanın təsviri

7.3.1. Rəydə istehsal prosesi texnoloji ardıcıllıqla təsvir edilir və istifadə olunan hər bir əsas avadanlıq üzrə aşağıdakı məlumat verilir: adı, markası, modeli, istehsalçısı, mənşə ölkəsi, buraxılış ili, istismara verilmə tarixi, istismar müddəti, nominal məhsuldarlığı, elektrik gücü, yanacaq sərfi, texniki vəziyyəti və iş rejimi.

7.3.2. Texniki pasport təqdim edilmədikdə məlumat istehsalçının rəsmi saytından, kataloqlardan və digər açıq mənbələrdən əldə edilir; səhifənin ünvanı, müraciət tarixi göstərilir və çıxarış rəyə əlavə edilir. Avadanlığın üzərindəki fabrik lövhəsinin fotoşəkli çəkilir.

7.3.3. Texnoloji xəttin məhsuldarlığını məhdudlaşdıran (darboğaz) avadanlıq müəyyən edilir; güc və vaxt metodu (7.5, M6) bu avadanlıq üzrə tətbiq olunur.

7.4. Monitorinq (sınaq-ölçmə işləri)

7.4.1. Monitorinqin məqsədi hər çeşid üzrə məhsul vahidinə sərf edilən elektrik enerjisinin, yanacağın, xammal və materialın, qablaşdırmanın və digər resursların miqdarını müəyyən etməkdir.

7.4.2. Monitorinq vergi orqanının nümayəndəsi, vergiödəyicisinin nümayəndəsi və ekspert (mütəxəssis) iştirakı ilə, əvvəlcədən yazılı tərtib edilmiş proqram əsasında aparılır. Zəruri hallarda şahidlər cəlb edilir (VM 47).

7.4.3. Monitorinqin müddəti tam istehsal tsiklini əhatə etməlidir. Hər çeşid üzrə azı üç təkrar ölçmə intervalı və ya bir tam növbə, fasiləsiz proseslərdə azı bir sutka tövsiyə olunur. Ölçmələr arasında kənarlaşma 10%-dən çox olduqda ölçmələrin sayı artırılır və ya səbəb araşdırılır.

7.4.4. Ölçmə üçün kommersiya uçotu sayğacları və ya qüvvədə olan yoxlama (kalibrləmə) sənədi olan portativ ölçmə vasitələri istifadə edilir. Hər sayğacın seriya nömrəsi, dəqiqlik sinfi, cərəyan və gərginlik transformatorlarının əmsalları, plombların vəziyyəti qeyd edilir. Elektrik enerjisinin uçotunda sayğacın göstəricisi transformator əmsalına vurulur.

7.4.5. Prosesin başladılması və sona çatdırılması anında sayğacların və digər ölçmə cihazlarının, tərəzilərin, hazır məhsul sayğaclarının tarix və vaxt göstəricisi ilə fotoşəkilləri çəkilir.

7.4.6. Qeyri-istehsal sərfi ayrıca ölçülür: istehsal başlamazdan əvvəl və bitdikdən sonra boş rejimdə, habelə istehsal olmayan günlərdə. Ayrıca sayğac olmadıqda qeyri-istehsal sərfi istehlakçıların nominal gücü və iş saatları əsasında hesablanır, hesablama rəydə göstərilir.

7.4.7. Monitorinqin nəticəsi üzrə akt tərtib edilir (F əlavəsi). Akt iştirakçılar tərəfindən imzalanır, imzadan imtina aktda qeyd edilir. Akt və fotoşəkillər rəyə əlavə edilir.

7.4.8. Monitorinqin aparılması mümkün olmadıqda (istehsal dayandırılıb, avadanlıq dəyişdirilib, obyektə giriş təmin edilmir, istehsal mövsümi xarakter daşıyır) buna səbəb olmuş hallar rəydə göstərilir və istehsal həcmi nəzəri üsullarla müəyyən edilir. Nəzəri üsulların mənbələri aşağıdakı ardıcıllıqla üstün tutulur: vergiödəyicisinin təsdiq edilmiş texnoloji reqlamenti və sərf normaları; avadanlıq istehsalçısının texniki göstəriciləri; sahə üzrə normativ və standartlar; vergi orqanının təqdim etdiyi oxşar müəssisədə aparılmış monitorinqin nəticələri; elmi və texniki ədəbiyyat.

7.5. Metodlar

7.5.1. İstehsal həcminin müəyyən edilməsi üçün aşağıdakı metodlar tətbiq edilir:

Kod	Metod	Əsas məlumat	Tipik tətbiq	Zəif tərəfi
M1	Elektrik enerjisi sərfi	Təchizatçının aylıq məlumatı, monitorinq	Enerji tutumlu istehsal	Qeyri-istehsal sərfinin ayrılması
M2	Yanacaq və qaz sərfi	Təchizatçının məlumatı, monitorinq	Sobalar, qazanlar, qurutma	İsitmə mövsümünün təsiri
M3	Xammal və material balansı	Alış sənədləri, qalıqlar, reseptlər	Bütün emal sahələri	Uçotdan kənar alış, itkilər
M4	Qablaşdırma, tara və etiket	Alış sənədləri, qalıqlar	Qida, içki, kimya	Qablaşdırılmamış satış
M5	Su sərfi	Təchizatçının məlumatı	İçki, süd, yuyulma prosesləri	Texniki və məişət suyu
M6	Avadanlığın məhsuldarlığı (güc və vaxt)	Pasport, monitorinq, iş vaxtı	Yuxarı hədd kimi	Nəzəri xarakter
M7	Xronometraj	Müşahidə nəticələri (VM 50-1, 67.1.8)	Kütləvi, ritmik istehsal	Müşahidə dövrünün təmsilçiliyi
M8	Əmək məhsuldarlığı	Əmək cədvəlləri, monitorinq	Əl əməyi tutumlu istehsal	Uçotdan kənar işçilər
M9	Tullantı və əlavə məhsul	Təhvil və satış sənədləri	Dəyirman, süd, ət emalı	Çıxar əmsalının dəyişkənliyi
M10	Nəqliyyat və çəki	Yol vərəqələri, çəki qeydləri	Tikinti materialları, hasilat	Sənədlərin tamlığı
M11	Üçüncü şəxslərin məlumatı	Alıcıların qeydləri, bank axınları, gömrük	Satış tərəfindən yoxlama	Satış ilə istehsal fərqi

Kod	Metod	Əsas məlumat	Tipik tətbiq	Zəif tərəfi
M12	Marksheyder və həcm ölçməsi	Geodeziya ölçmələri, sıxlıq	Karxana, hasilat	Ölçmə tarixləri

7.5.2. M1. Elektrik enerjisi sərfi. İstehsala sərf edilmiş enerji ümumi sərfdən qeyri-istehsal sərfi və şəbəkə itkiləri çıxılmaqla tapılır və monitorinqlə müəyyən edilmiş xüsusi sərfə bölünür:

$$Q = (E_{ümumi} − E_{qeyri\text{-}istehsal}) × (1 − k_{itki}) / q_e$$

Bir neçə çeşid olduqda çeşidlərin strukturu (s_i, satış və ya istehsal sənədlərinə görə) məlumdursa ümumi həcm belə tapılır:

$$Q = E_{istehsal} / Σ (s_i × q_i),\ Q_i = s_i × Q$$

Monitorinq günlərinin sayı imkan verirsə gündəlik sərf ilə gündəlik istehsal arasında xətti asılılıq qurulur: $E_{gün} = a + b × Q_{gün}$; burada a sabit (qeyri-istehsal) sərf, b xüsusi sərfdir. Bu halda yoxlama dövrü üçün $Q = (E − a × N_{gün}) / b$. Reaktiv enerji hesablamaya daxil edilmir.

7.5.3. M2. Yanacaq və qaz sərfi. M1-in düsturu tətbiq edilir. İsitmə üçün qaz sərfi isitmə mövsümünün ayları üzrə ayrıca qiymətləndirilir və istehsal sərfindən çıxılır.

7.5.4. M3. Xammal və material balansı. Dövr ərzində istehsala sərf edilmiş xammal balans üsulu ilə tapılır və sərf normasına bölünür:

$$X_{sərf} = X_{əvvəl} + X_{daxilolma} − X_{son} − X_{digər}$$

$$Q = X_{sərf} × (1 − k_{itki}) / n$$

Burada $X_{digər}$ sənədlə təsdiq edilmiş digər istifadə (satış, silinmə, daxili istehlak), k_{itki} istehsal itkisi əmsalı, n məhsul vahidinə sərf normasıdır. Hesablama azı iki əsas xammal və ya material üzrə aparılır və onların nəticələri resepturadakı nisbətlərlə tutuşdurulur. Daxilolmalar alış sənədləri ilə yanaşı gömrük məlumatı və bank ödənişləri ilə yoxlanılır.

7.5.5. M4. Qablaşdırma, tara və etiket. Məhsul vahidinə sərf edilən qablaşdırma vahidinin sayı adətən dəqiq məlumdur, ona görə bu metod yüksək etibarlılıq verir:

$$Q = (T_{əvvəl} + T_{daxilolma} − T_{son}) × (1 − k_{zay}) / t$$

Burada t məhsul vahidinə düşən qablaşdırma vahidlərinin sayıdır. Qablaşdırılmadan satılan məhsulun payı ayrıca müəyyən edilir.

7.5.6. M5. Su sərfi. Su məhsulun tərkib hissəsi olduqda (içkilər, süd məhsulları) M3-ün düsturu tətbiq edilir; texnoloji və məişət suyu ayrıca qiymətləndirilir.

7.5.7. M6. Avadanlığın məhsuldarlığı (güc və vaxt metodu).

$$Q = P × k_{yük} × T_{faktiki},\ T_{faktiki} = N_{gün} × N_{növbə} × t_{növbə} × (1 − k_{dayanma})$$

Burada P darboğaz avadanlığın nominal məhsuldarlığı, $k_{yük}$ monitorinqlə müəyyən edilmiş faktiki yüklənmə əmsalıdır. Metod adətən yuxarı həddi verir və məntiqi yoxlama kimi istifadə olunur; ən ehtimallı qiymətin hesablanmasına yalnız digər metodların tətbiqi mümkün olmadıqda daxil edilir.

7.5.8. M7. Xronometraj. Vergi orqanının apardığı xronometraj müşahidəsinin nəticələri (VM 50-1, 67.1.8) və ya monitorinq zamanı vaxt vahidinə istehsal göstəricisi faktiki iş vaxtına tətbiq edilir. Müşahidə dövrünün yoxlama dövrü üçün təmsilçiliyi əsaslandırılır.

7.5.9. M8. Əmək məhsuldarlığı. Q = işçilərin sayı × faktiki iş saatları × bir adam-saata düşən istehsal. Uçotdan kənar işçilərin olması əlamətləri ayrıca qeyd edilir.

7.5.10. M9. Tullantı və əlavə məhsul. Əsas məhsulla sabit nisbətdə yaranan əlavə məhsulun (dəyirmanda kəpək, pendir istehsalında zərdab, ət emalında subməhsullar) satış və təhvil sənədlərindən çıxar əmsalı ilə əsas məhsulun həcminə keçid edilir.

7.5.11. M10. Nəqliyyat və çəki. Reyslərin sayı, yük maşınlarının yükgötürmə qabiliyyəti və çəki körpüsünün qeydləri əsasında göndərilmiş məhsulun həcmi müəyyən edilir.

7.5.12. M11. Üçüncü şəxslərin məlumatı. Alıcıların alış məlumatı, elektron qaimə-fakturalar, gömrük ixrac məlumatı və bank axınları satış tərəfindən yoxlama üçün istifadə olunur. Bu məlumat satış həcmini göstərir; istehsala keçid 7.10-cu bənd üzrə aparılır.

7.5.13. M12. Marksheyder və həcm ölçməsi. Karxana və digər hasilat sahələrində hasil edilmiş həcm dövrün əvvəlinə və sonuna aparılmış geodeziya ölçmələrinin fərqi və materialın sıxlığı ilə müəyyən edilir.

7.6. Təbii və istehsal itkiləri, qeyri-istehsal ehtiyacları

7.6.1. Rəydə itkilərin və qeyri-istehsal sərfinin müəyyən edilmə mexanizmi ətraflı göstərilir:

Komponent	Müəyyən edilmə üsulu	Mənbə
Təbii itki (saxlanma, daşınma)	Normativ əmsal	Təsdiq edilmiş normalar, standartlar
İstehsal itkisi və tullantı	Monitorinq, texnoloji reqlament	Monitorinq aktı, reqlament
Zay məhsul	Faktiki silinmə aktları, monitorinq	Silinmə və zay aktları
Şəbəkə itkiləri (enerji)	Təchizatçının məlumatı və ya texniki hesab	Təchizatçının məlumatı
Qeyri-istehsal sərfi	Boş rejimdə ölçmə, istehlakçıların gücü və iş saatları	Monitorinq aktı, hesablama
Daxili istehlak	Sənədlər	Daxili istifadə aktları

7.6.2. Normadan artıq itki yalnız sənədlə (silinmə aktı, qəza aktı, keyfiyyət ekspertizasının nəticəsi) təsdiq edildikdə nəzərə alınır. Təsdiq edilməyən itki iddiası rəydə qeyd edilir və nəticəyə təsiri göstərilir.

7.7. İş rejimi və dayanmalar

7.7.1. Rəydə istehsal prosesinin iş rejimi göstərilir: iş günləri, növbələrin sayı və müddəti, fasilələr, növbələr arasında və təmir, profilaktika, elektrik kəsintisi, xammal çatışmazlığı səbəbindən boş dayanma halları, mövsümilik və fəaliyyət sahəsinin istehsal həcminə təsir edə bilən digər xüsusiyyətləri.

7.7.2. Dayanmalar təmir jurnalları, elektrik təchizatçısının kəsinti məlumatı, əmək vaxtının uçotu cədvəlləri və sayğacların aylıq göstəriciləri ilə yoxlanılır. Sayğac göstəricisi istehsal olmadığı iddia edilən dövrdə istehsal səviyyəsində sərf göstərirsə bu hal rəydə qeyd edilir.

7.8. Monitorinq nəticələrinin yoxlama dövrünə tətbiqi

7.8.1. Monitorinq yoxlama zamanı, yoxlama dövrü isə keçmişdə olduğundan monitorinqlə müəyyən edilmiş xüsusi sərf yoxlama dövrünə yalnız aşağıdakı şərtlər yoxlandıqdan sonra tətbiq edilir: avadanlıq, texnologiya, resept, çeşid və ölçmə vasitələri yoxlama dövründə dəyişməyib. Bu, istismara verilmə aktları, əsas vəsaitlərin inventar kartları, alış sənədləri və vergiödəyicisinin yazılı izahatı ilə yoxlanılır.

7.8.2. Dəyişiklik olduqda yoxlama dövrü alt dövrlərə bölünür və hər alt dövr üçün müvafiq xüsusi sərf əsaslandırılır. Avadanlığın aşınması nəticəsində xüsusi sərfin dəyişməsi ehtimal edildikdə bu təsir qiymətləndirilir və rəydə göstərilir.

7.9. Nəticələrin uzlaşdırılması

7.9.1. Hər metodun nəticəsi ayrıca göstərilir.

7.9.2. Metodların nəticələri arasındakı kənarlaşma (ən böyük və ən kiçik nəticənin fərqinin orta qiymətə nisbəti) hesablanır. Kənarlaşma 10%-dən çox olduqda səbəbləri araşdırılır: uçotdan kənar xammal alışı, çeşid strukturunun dəyişməsi, itkilər, sayğacların xətası, monitorinqin təmsilçiliyi. Araşdırmanın nəticəsi rəydə göstərilir.

7.9.3. Ən ehtimallı qiymət metodların etibarlılıq çəkiləri ilə orta qiymət kimi və ya ən etibarlı metodun nəticəsi kimi müəyyən edilir. Çəkilər ölçmənin dəqiqliyi, məlumatın rəsmi xarakteri və metodun obyektə uyğunluğu əsasında əsaslandırılır. Yuxarı həddi verən metodlar (M6) çəkili ortaya daxil edilmir və məntiqi yoxlama kimi istifadə olunur.

7.9.4. Diapazon müstəqil metodların ən kiçik və ən böyük nəticəsi ilə müəyyən edilir; ölçmə qeyri-müəyyənliyi daha böyükdürsə o da göstərilir.

7.9.5. Vergi Məcəlləsinin 67.6-cı maddəsinə görə bir neçə oxşar məlumat olduqda vergi ən yüksək məbləğə əsas verən məlumat əsasında hesablanır. Bu, vergi orqanının səlahiyyətidir. Ekspert ən yüksək nəticəni avtomatik seçmir; hər metodun nəticəsini ayrıca göstərir və vergi orqanının öz səlahiyyətini həyata keçirməsi üçün zəruri məlumatı təqdim edir.

7.10. İstehsaldan satışa keçid

7.10.1. Vergi nəticələri adətən satışla bağlı olduğundan istehsal həcmindən satış həcminə keçid aparılır:

$$S = Q + H_{əvvəl} - H_{son} - D - İ$$

Burada S satış həcmi, H hazır məhsulun dövrün əvvəlinə və sonuna qalığı, D daxili istehlak, İ sənədlə təsdiq edilmiş itki və silinmədir.

7.10.2. Dövrün sonuna qalıq inventarizasiya aktına əsasən müəyyən edilir; inventarizasiya yoxlama zamanı aparıldıqda qalıq dövrün sonuna məxaric və mədaxil sənədləri ilə gətirilir.

7.10.3. Uçotda əks olunmayan istehsal $\Delta Q = Q - Q_{uçot}$, uçotda əks olunmayan satış $\Delta S = S - S_{uçot}$ ayrıca göstərilir.

7.11. Sahə xüsusiyyətləri

7.11.1. Fəaliyyət sahəsindən asılı olaraq tövsiyə edilən metodlar:

Sahə	Əsas metodlar	Xüsusi diqqət
Çörək və un məmulatları	M1, M3 (un), M4 (paket)	Bişmə itkisi, qaytarılan köhnə məhsul
Süd məhsulları	M3 (çiy süd), M4, M5	Yağlılıq üzrə çeviriş, zərdab (M9)
Alkoqolsuz və alkoqollu içkilər	M5, M4 (şüşə, qapaq, etiket), M3 (şəkər, konsentrat)	Aksiz markaları, qablaşdırma həcmləri
Kərpic, beton, blok	M1, M2, M3 (sement, qum), M10	Rütubət, sıxlıq, zay
Un dəyirmanı	M1, M3 (taxıl), M9 (kəpək)	Çıxar əmsalı, taxılın rütubəti
Ət və quşçuluq	M3 (diri çəki), M9 (subməhsullar)	Kəsim çıxarı, soyutma itkisi
Tikiş və toxuculuq	M8, M3 (parça)	Biçim itkisi, sifarişçinin materialı

Sahə	Əsas metodlar	Xüsusi diqqət
Plastik qablar	M1, M3 (polimer)	Təkrar emal, zay
Metal emalı	M1, M3 (metal)	Qırıntı, sifarişçinin materialı
Mebel	M3 (lövhə), M8	Biçim xəritələri
Karxana və hasilat	M12, M10, M1	Ölçmə tarixləri, sıxlıq
Meyvə və tərəvəz emalı	M3, M4, M2	Mövsümilik, çıxar əmsalı

8. İstehsal həcminin pul ifadəsi

8.1. Pul ifadəsi fiziki həcm müəyyən edildikdən sonra, rəyin ayrıca bölməsində, çeşidlər və vergi dövrləri üzrə aparılır.

8.2. Qiymət mənbələri aşağıdakı ardıcıllıqla üstün tutulur və seçim rəydə əsaslandırılır:

8.2.1. vergiödəyicisinin həmin dövrdə eyni məhsulu əlaqəli olmayan alıcılara satdığı faktiki qiymətlər (elektron qaimə-fakturalar, ƏDV elektron hesab-fakturaları üzrə ayın və ya rübün çəkili orta qiyməti, güzəştlər və partiyanın həcmi nəzərə alınmaqla);

8.2.2. Vergi Məcəlləsinin 14-cü maddəsi üzrə bazar qiyməti (3.2-3.4-cü bəndlər): rəsmi statistika, digər istehsalçıların faktiki satış qiymətləri (vergi orqanının təqdim etdiyi məlumat), birja qiymətləri, Palatanın indeksləri; internet elanları yalnız köməkçi mənbədir (13.4);

8.2.3. xərc əsaslı qiymət: məhsulun istehsalına çəkilən adi xərclər və asılı olmayan şəxslər arasında adi olan əlavə (VM 14.6), müqayisə oluna bilən satış məlumatı olmadıqda.

8.3. Əlaqəli şəxslərə satış qiymətləri 8.2.1-ci bənd üzrə istifadə edilmir.

8.4. ƏDV və aksiz rejimi. Nəticə ƏDV-siz göstərilir; ƏDV daxil məbləğ sual qoyulduqda ayrıca sütunda verilir. Aksiz ayrıca göstərilir. Rejimin hüquqi müəyyən edilməsi vergi orqanının səlahiyyətindədir; ekspert hansı rejimdə hesabladığını göstərir.

8.5. Dövrlər üzrə bölgü. Uçotda əks olunmayan həcm aylar (rüblər) üzrə monitorinqin əsaslandığı resursun aylıq məlumatına (məsələn, elektrik enerjisinin aylıq sərfinə) mütənasib bölünür; mümkün olduqda hər ay üçün hesablama ayrıca aparılır. Hər dövrə həmin dövrün qiyməti tətbiq edilir.

8.6. Xarici valyuta ilə ifadə edilmiş qiymətlər Vergi Məcəlləsinin 69-cu maddəsinə uyğun manata çevrilir.

8.7. Keçmiş dövr üçün həmin dövrün qiymətləri istifadə edilir. Cari qiymətlər keçmiş dövrə yalnız rəsmi qiymət indeksləri ilə gətirilə bilər, üsul və indeksin mənbəyi göstərilir. İnternet elanları keçmiş dövrə tətbiq edilmir.

8.8. Maya dəyəri ilə ifadə yalnız sual qoyulduqda, kalkulyasiya kartları və faktiki xərclər əsasında aparılır; satış dəyəri ilə cəmlənmir və ayrıca göstərilir.

8.9. Nəticə cədvəlinin forması:

Dövr	Çeşid	Uçotda əks olunmayan həcm	Qiymət, AZN	Qiymətin mənbəyi	Dəyər, AZN (ƏDV-siz)	Qeyd
Ay (rüb)	Ad, ölçü vahidi	Natural ifadədə	Vahidin qiyməti	8.2.1, 8.2.2 və ya 8.2.3	Həcm × qiymət	ƏDV, aksiz rejimi

8.10. Pul ifadəsi vergi bazası deyil; vergi məbləği 15.3-cü bənddə göstərilən şərtlərlə hesablanır.

9. Əmlak vergisi və əsas vəsaitlərin dəyəri

9.1. Qiymətləndirici aşağıdakı hallarda əsas vəsaitlərin dəyərinin müəyyən edilməsinə cəlb oluna bilər:

9.1.1. əsas vəsaitlər qalıq dəyərindən yüksək məbləğdə sığortalandıqda əmlak vergisi sığorta tarixinə bazar dəyəri əsasında hesablanır (VM 201.1.1); ekspertə bazar dəyərinin sığorta tarixinə müəyyən edilməsi sualı qoyulur;

9.1.2. vergi yoxlaması zamanı balansda əks olunmayan əsas vəsaitlər aşkar edildikdə (əmlak vergisinin obyekti VM 197.1.3; vergi orqanı əmlak barədə rəsmi məlumatdan istifadə edə bilər, VM 67.1.4) aktivin müəyyən tarixlərə dəyəri;

9.1.3. qalıq dəyərinin əsaslandırılması mübahisə predmeti olduqda;

9.1.4. güzəştlə vergiyə cəlb edilən əmlakın ayrılması tələb edildikdə (VM 199.4: ətraf mühitin mühafizəsi və yanğın təhlükəsizliyi obyektləri, boru kəmərləri, yollar, təhsil, səhiyyə, mədəniyyət və idman obyektləri və s.); həmin hissə ayrıca ölçülür və ayrıca göstərilir;

9.1.5. qalıq dəyərinin qanunda göstərilmiş həddə münasibəti əhəmiyyət daşıdıqda (VM 199.14);

9.1.6. vergi borcu üzrə həbs edilmiş əmlak satışa çıxarıldıqda (VM 90.3);

9.1.7. fiziki şəxslərə məxsus mühərriksiz su və hava nəqliyyatı vasitələri üzrə vergi bazar dəyərindən hesablandıqda (VM 198.1.2.3).

9.2. Ölçmə tarixi normadan irəli gəlir: ilin əvvəli və sonu (202.1.1), qeydiyyat və ya ləğv tarixi (202.1.2, 202.1.3), sığorta tarixi (201.1.1). Hər tarix üçün nəticə ayrıca verilir.

9.3. Yanaşmalar: daşınmaz əmlak üçün müqayisəli yanaşma (Əmlak Məsələləri Dövlət Xidmətindən alınmış faktiki əqd məlumatı ilə, gəlir və xərc yanaşmaları; maşın və avadanlıq üçün xərc yanaşması (əvəzetmə dəyəri, köhnəlmə çıxılmaqla) və müqayisəli yanaşma; nəqliyyat vasitələri üçün müqayisəli yanaşma; tikilməkdə olan obyektlər üçün xərc yanaşması. Palatanın müvafiq metodologiyaları tətbiq olunur.

9.4. Qalıq dəyəri ilə bazar dəyəri fərqləndirilir. Qalıq dəyəri mühasibat uçotunun göstəricisidir, bazar dəyəri isə qiymətləndirmə nəticəsidir. Balansda əks olunmayan aktiv üçün "qalıq dəyəri" sualı qoyulduqda ekspert aktivin ilkin dəyərini (alış sənədləri, olmadıqda alış tarixinə bazar qiyməti) müəyyən edir; amortizasiya vergi orqanının göstərdiyi norma ilə və ya müəssisənin uçot siyasəti ilə arifmetik hesablanır, norma və mənbəyi göstərilir. Bu hesablama köhnəlmə deyil (4.2).

9.5. Orta illik qalıq dəyərinin arifmetik hesablanması (sual qoyulduqda) Vergi Məcəlləsinin 202.1-ci maddəsinə uyğun aparılır:

$$QD_{orta} = (QD_{ilin\ əvvəli} + QD_{ilin\ sonu}) / 2$$

İl ərzində yaradılmış (qeydiyyata alınmış) müəssisə üçün qeydiyyat tarixinə və ilin sonuna qalıq dəyərlərinin cəmi 24-ə bölünür və ilin qalan aylarının sayına vurulur (202.1.2); ləğv edilən müəssisə üçün ilin əvvəlinə və ləğv tarixinə qalıq dəyərlərinin cəmi 24-ə bölünür və keçmiş ayların sayına vurulur (202.1.3). Yenidən qiymətləndirmədən yaranan artım nəzərə alınmır (202.1.1).

Nümunə: $QD_{ilin\ əvvəli}$ = 800 000 AZN, $QD_{ilin\ sonu}$ = 760 000 AZN; QD_{orta} = (800 000 + 760 000) / 2 = 780 000 AZN; 198.2-ci maddədə göstərilən 1 faizlik dərəcə ilə arifmetik hesablama 7 800 AZN. Güzəştlərin tətbiqi vergi orqanının qərarıdır.

9.6. Əmlak vergisinin məbləği yalnız 15.3-cü bənddə göstərilən şərtlərlə, Vergi Məcəlləsinin 198.2-ci maddəsindəki dərəcə tətbiq edilməklə arifmetik hesablanır.

9.7. Torpaq vergisində normativ qiymət inzibati göstəricidir (4-cü bölmə) və bazar dəyəri ilə əvəz edilmir. Torpağın normativ qiyməti və bazar dəyəri eyni vaxtda tələb olunduqda ayrı-ayrı sətirlərdə, mənbəyi ilə göstərilir.

10. Əməliyyatların vergi bazası

10.1. Qiymətləndirmə aşağıdakı əməliyyatlarda tələb oluna bilər: əmlakın əvəzsiz və ya güzəştli qiymətlə verilməsi, barter əməliyyatları (VM 67.13), əmlakın nizamnamə kapitalına qoyulması, natura şəklində ödəniş, əlaqəli şəxslər arasında əməliyyatlar, əmlakın təqdim edilməsi zamanı qiymətin bazar səviyyəsindən əhəmiyyətli fərqləndiyi hallar.

10.2. Ölçmə müqayisəli yanaşmaya üstünlük verməklə, Vergi Məcəlləsinin 14-cü maddəsinin tələbləri nəzərə alınmaqla aparılır. Məlumat mənbələrinin iyerarxiyası, analoqların seçilməsi, sövdələşmə güzəşti və düzəlişlər Palatanın bazar təhlili metodologiyasına və bu Metodologiyanın 13-cü bölməsinə uyğun həyata keçirilir.

10.3. ƏDV rejimi hesabatın birinci səhifəsində göstərilir: nəticə vergi daxil, yoxsa vergisiz verilir. Bu göstəriş olmadan nəticə vergi hesablamalarında istifadə edilə bilməz.

10.4. Nəticə əməliyyatın baş verdiyi tarixə verilir. Sonrakı dövrün qiymət dəyişməsi nəticəyə daxil edilmir.

10.5. Əməliyyatın qiyməti ilə ölçülmüş bazar səviyyəsi arasındakı fərq hesabatda göstərilir, lakin fərqin vergi nəticəsi barədə rəy verilmir.

10.6. Barter və natura əməliyyatlarında hər iki tərəfin verdiyi əmlak ayrıca ölçülür, nəticələr ayrıca sətirlərdə göstərilir və cəmlənmir.

11. Transfer qiymətləri

11.1. Transfer qiymətləri üzrə qiymətləndirmənin predmeti əlaqəli şəxslər arasındakı əməliyyatın şərtlərinin qol uzunluğu prinsipinə uyğunluğudur.

11.2. Qiymətləndiricinin rolu məhduddur və onun sərhədi tapşırığın əvvəlində müəyyən edilir:

Məsələ	Kimin səlahiyyətindədir
Əlaqəli şəxs statusunun müəyyən edilməsi	Vergi ödəyicisi və vergi orqanı
Funksional təhlil: funksiyalar, aktivlər, risklər	Vergi ödəyicisi, qiymətləndiricinin iştirakı ilə
Transfer qiyməti metodunun seçilməsi	Vergi ödəyicisi
Müqayisə oluna bilən əməliyyatların axtarışı və seçilməsi	Qiymətləndirici və ya vergi ödəyicisi
Aktivin, hüququn və ya əməliyyatın dəyərinin ölçülməsi	Qiymətləndirici
Sənədləşdirmənin hazırlanması və təqdim edilməsi	Vergi ödəyicisi
Qiymətin qol uzunluğu prinsipinə uyğunluğu barədə hüquqi nəticə	Vergi orqanı, mübahisədə məhkəmə

11.3. Beş metod tanınır: müqayisə oluna bilən nəzarət olunmayan qiymət, sonrakı satış qiyməti, xərclər üstəgəl, əməliyyat xalis marjası, əməliyyat mənfəətinin bölüşdürülməsi. Metodun seçimi əməliyyatın xarakterinə və məlumatın mövcudluğuna görə əsaslandırılır:

Metod	Tipik tətbiq	Qiymətləndiricinin töhfəsi
Müqayisə oluna bilən nəzarət olunmayan qiymət	Əmlakın, malın və hüququn ötürülməsi	Müqayisə məlumatının toplanması və düzəlişlər
Sonrakı satış qiyməti	Distribyutor funksiyası	Bazar marjalarının təhlili
Xərclər üstəgəl	Xidmət və istehsal funksiyası	Xərc bazasının və marjanın yoxlanılması
Əməliyyat xalis marjası	Mürəkkəb funksiyalar	Müqayisə oluna bilən şirkətlərin göstəriciləri
Əməliyyat mənfəətinin bölüşdürülməsi	Unikal aktivlərin birgə istifadəsi	Aktivlərin dəyərinin və töhfəsinin ölçülməsi

11.4. Qeyri-maddi aktivlərin ötürülməsi və ya istifadəsi ilə bağlı əməliyyatlarda aktivin dəyəri Palatanın qeyri-maddi aktivlər metodologiyasına uyğun ölçülür, royalti dərəcəsinin əsaslandırılması müqayisə məlumatı ilə aparılır.

11.5. Nəticə nöqtə göstəricisi ilə yanaşı diapazon şəklində də verilə bilər. Müqayisə oluna bilən əməliyyatların sayı az olduqda diapazon və onun statistik əsası göstərilir.

11.6. Müqayisəlilik düzəlişləri sənədləşdirilir: hansı fərq, hansı istiqamətdə və hansı kəmiyyətlə düzəldilib. Düzəliş edilə bilməyən fərqlər açıqlanır və müqayisə obyekti kənarlaşdırılır.

12. Retrospektiv qiymətləndirmə

12.1. Vergi məqsədli tapşırıqların əhəmiyyətli hissəsi keçmiş tarixə aparılır: əməliyyat tarixinə, vergi dövrünün başlanğıcına və ya yoxlama ilə əhatə olunan dövrə.

12.2. Sonrakı bilik qadağası. Qiymətləndirmə tarixindən sonra baş vermiş hadisələrdən yalnız həmin tarixdəki vəziyyəti aşkarlayanlar istifadə edilir. Vəziyyəti dəyişən hadisələr nəticəyə daxil edilmir. Bu ayrım hesabatda izah olunur.

12.3. Məlumat bazası qiymətləndirmə tarixinə aid olmalıdır: həmin dövrün əqdləri, qiymətləri, indeksləri və tikinti xərcləri. Cari məlumatın rəsmi indekslə keçmişə gətirilməsi yolverilən dir və üsul açıqlanır. Ötən dövrlərdəki inflyasiya və qiymətlərə təsir edən digər amillər, o cümlədən Vergi Məcəlləsinin 14.6.1-ci maddəsində göstərilən amillər nəzərə alınır.

12.4. Obyektin qiymətləndirmə tarixindəki fiziki vəziyyəti barədə məlumat olmadıqda fərziyyə qəbul edilir və onun nəticəyə təsiri göstərilir.

13. Məlumat mənbələri və sübut standartı

13.1. Mənbələr aşağıdakı ardıcıllıqla üstün tutulur:

1) rəsmi dövlət məlumatı: Əmlak Məsələləri Dövlət Xidmətinin əqd məlumatı, Dövlət Statistika Komitəsinin göstəriciləri, gömrük məlumatı, kommunal xidmət təchizatçılarının məlumatı, Mərkəzi Bankın rəsmi məzənnələri;
2) vergiödəyicisinin ilkin sənədləri və uçot registrləri;
3) vergi orqanının təqdim etdiyi məlumat (elektron qaimə-fakturalar, oxşar fəaliyyət göstərən vergiödəyiciləri barədə ümumiləşdirilmiş məlumat);
4) monitorinq, xronometraj və baxış nəticələri;

5) avadanlıq istehsalçılarının texniki sənədləri, normativlər, standartlar, texniki reqlamentlər;
6) Palatanın indeksləri, metodiki göstəricilər bazası və peşəkar məlumat bazaları;
7) internet elanları (yalnız köməkçi mənbə kimi, 13.4-cü bənd üzrə).

13.2. Rəsmi sorğular. Analoji əməliyyatlar üzrə rəsmi məlumatın əldə edilməsi üçün bütün zəruri tədbirlər görülür və nəticəsi rəydə qeyd edilir. Qiymətləndirici sorğunun mətnini hazırlayır; sorğu vergi orqanı vasitəsilə göndərilir (VM 44.4). Rəydə sorğunun tarixi, nömrəsi, ünvanı və cavab (və ya cavabın alınmaması) göstərilir.

13.3. Hər mənbə üzrə dörd element göstərilir: mənbənin adı, aid olduğu tarix və ya dövr, əldə edilmə üsulu (sənəd, sorğu, keçid və müraciət tarixi), istifadə edilən göstərici. Mənbədən çıxarış rəyə əlavə edilir.

13.4. İnternet elanları:

- təklif qiyməti kimi qəbul edilir və sövdələşmə güzəşti ilə düzəldilir, güzəştin mənbəyi göstərilir;
- bazar qiyməti kimi birbaşa qəbul edilmir və keçmiş dövrlərə tətbiq edilmir;
- elanın dərc tarixi təsdiq edilmədikdə istifadə edilmir;
- elan səhifəsinin çıxarışı (ekran görüntüsü) tarix və ünvanla rəyə əlavə edilir.

13.5. “Bazar məlumatı”, “ekspert qiymətləndirməsi”, “açıq mənbələr” kimi ifadələr mənbə sayılmır. Mənbəyi bəlli olmayan məlumata istinad, rəydə uyğunsuzluqlar və izah edilməmiş qeyri-müəyyənliklər yolverilməzdir. Qaçılmaz qeyri-müəyyənlik fərziyyə və diapazon şəklində açıqlanır.

14. Rəyin məzmunu və forması

14.1. Rəy aşağıdakı vahid struktur üzrə tərtib edilir:

№	Bölmə	Məzmun
1	Giriş	Tədqiqatın aparıldığı yer, vaxt, tarix və əsası (qərarın və ya müqavilənin tarixi və nömrəsi)
2	Sifarişçi orqan	Vergi orqanının adı, vəzifəli şəxs
3	İcraçı	Ad, soyad, təhsil, ixtisas şəhadətnaməsi, Palataya üzvlük, staj, xüsusi biliyi təsdiq edən sənədlər
4	Suallar	Qərarda (müqavilədə) olduğu kimi, hərfi
5	Tədqiqat obyekti və materiallar	Obyektin təsviri, təqdim edilmiş materialların reyestri
6	Digər iştirakçılar	Kompleks qrupun üzvləri, vergiödəyicisinin nümayəndəsi, şahidlər
7	Metodlar, vasitələr və alətlər	Metodlar, ölçmə cihazları (yoxlama sənədi ilə), proqram təminatı
8	İstinad mənbələri	13.3-cü bənd üzrə dörd elementlə
9	Tədqiqatın təsviri və əsaslandırılması	Hər sual üzrə ayrıca; məntiqi ardıcıllıq; hesablamalar düsturları ilə
10	Nəticələr	Hər suala dəqiq və tam cavab; ən ehtimallı qiymət və diapazon
11	Fərziyyələr və məhdudiyyətlər	Hər birinin nəticəyə istiqaməti

№	Bölmə	Məzmun
12	Bəyanatlar	Müstəqillik, marağın olmaması, məsuliyyət barədə xəbərdarlıq
13	İmza və tarix	Ekspert (qrupun hər üzvü öz bölməsi üzrə)
14	Əlavələr	Monitorinq aktı, fotoşəkillər, mənbə çıxarışları, sorğular və cavablar, hesablama cədvəlləri, avadanlıq kartları

14.2. Rəy Azərbaycan dilində tərtib edilir, səhifələri nömrələnir, son səhifədə və hər əlavədə imzalanır. Hesablama cədvəlləri həm çap, həm də elektron (düsturlarla) formada təqdim edilir. Ölçü vahidləri və yuvarlaqlaşdırma qaydası göstərilir; rəydə eyni göstəricinin fərqli qiymətləri olmamalıdır.

14.3. Hər suala ayrıca, dəqiq cavab verilir: rəqəm, ölçü vahidi, dövr və diapazon. Cavab verilə bilməyən sual üzrə səbəb göstərilir (VM 44.5).

14.4. Suallarda olmayan, lakin tədqiqat zamanı aşkar edilmiş əhəmiyyətli hallar (məsələn, uçotdan kənar xammal alışının əlamətləri) rəyin ayrıca bölməsində göstərilə bilər (VM 44.8).

15. Səlahiyyət hüdudu və müstəqillik

15.1. Qiymətləndirici aşağıdakı məsələlərdə nəticə vermir: vergi öhdəliyinin hüquqi müəyyən edilməsi, vergi bazasının seçilməsi, güzəşt və azadolmaların tətbiqi, əməliyyatın vergi məqsədli yenidən təsnifatı, maliyyə sanksiyaları və faizlər, vergi ödəyicisinin hərəkətlərinin qanuniliyi və təqsiri, Vergi Məcəlləsinin 67.6-cı maddəsi üzrə məlumatın seçilməsi.

15.2. Vergi orqanı ilə vergi ödəyicisi arasında mübahisədə qiymətləndirici tərəfdar deyil. Rəy və hesabat hər iki tərəf üçün eyni məzmunda hazırlanır; sifarişçinin kimliyi nəticəyə təsir etmir.

15.3. Vergi bazasının və ya vergi məbləğinin arifmetik hesablanması yalnız aşağıdakı şərtlər birlikdə ödənildikdə aparılır:

- bu sual vergi orqanının qərarında və ya müqavilədə açıq şəkildə qoyulub;
- tətbiq edilən düstur və dərəcə Vergi Məcəlləsinin maddəsinə istinadla göstərilir;
- nəticə “arifmetik vergi hesablaması” adlandırılır və hüquqi nəticə kimi təqdim edilmir;
- güzəştlər, azadolmalar, sanksiyalar və faizlər hesablamaya daxil edilmir, əgər onlar sualda açıq göstərilməyibsə.

15.4. Xidmət haqqı vergi nəticəsindən, o cümlədən hesablanan və ya qənaət edilən vergi məbləğindən asılı ola bilməz. Belə şərt “Qiymətləndirmə fəaliyyəti haqqında” Qanunun müstəqillik tələbinin pozulmasıdır.

15.5. Hesabat və rəy vergi orqanına və ya məhkəməyə tam həcmdə təqdim edilir. Ayrı-ayrı rəqəmlərin və ya bölmələrin kontekstdən kənar istifadəsi yolverilməzdir.

15.6. Tapşırığın icrası zamanı maraqlar toqquşması yarandıqda qiymətləndirici bu barədə vergi orqanına dərhal yazılı məlumat verir və tapşırığın icrasını dayandırır.

16. Məcburi açıqlamalar

16.1. Hesabatda və ya rəydə aşağıdakılar açıqlanır:

16.1.1. tapşırığın növü (2.1-ci bənddəki A-G rolları) və hüquqi əsası;

16.1.2. ölçülən kəmiyyətin adı və hansı normadan irəli gəldiyi;

16.1.3. vergi anlayışı ilə qiymətləndirmə anlayışı arasındakı fərqin izahı, hər ikisi tələb olunduqda;

16.1.4. inzibati göstəricilərin mənbəyi və onların nəticə ilə münasibəti;

16.1.5. ölçmə tarixi (dövrü) və onun vergi dövrü ilə uzlaşması;

16.1.6. ƏDV və aksiz rejimi;

16.1.7. Vergi Məcəlləsinin 14.6.1-ci maddəsindəki amillərin hər biri üzrə qeyd (3.3);

16.1.8. retrospektiv qiymətləndirmədə istifadə edilmiş məlumatın dövrü və sonrakı bilik qadağasının necə gözlənildiyi;

16.1.9. müqayisə məlumatının mənbəyi, seçmə və kənarlaşdırma qaydası, rəsmi sorğular və onların nəticəsi;

16.1.10. istehsal həcmi üzrə: tətbiq edilmiş metodlar, hər metodun nəticəsi, kənarlaşma, çəkilər, ən ehtimallı qiymət və diapazon;

16.1.11. monitorinqin aparılıb-aparılmadığı, aparılmadıqda səbəbi və tətbiq edilmiş nəzəri üsul;

16.1.12. qeyri-istehsal sərfinin, itkilərin və dayanmaların müəyyən edilmə mexanizmi;

16.1.13. monitorinq nəticələrinin yoxlama dövrünə tətbiqinin şərtləri (7.8);

16.1.14. istehsaldan satışa keçid və hazır məhsul qalıqları;

16.1.15. pul ifadəsində qiymətin mənbəyi və dövrlər üzrə bölgü;

16.1.16. transfer qiymətlərində: funksional təhlilin nəticəsi, seçilmiş metod və onun kim tərəfindən seçildiyi, müqayisəlilik düzəlişləri və onların kəmiyyəti, diapazonun statistik əsası;

16.1.17. arifmetik vergi hesablaması aparıldıqda onun 15.3-cü bəndin şərtlərinə uyğunluğu;

16.1.18. kompleks qrupun tərkibi və hər üzvün cavabdeh olduğu hissə;

16.1.19. vergiödəyicisinin izahatları və onlara münasibət;

16.1.20. səlahiyyət hüdudu, müstəqillik və haqqın nəticədən asılı olmaması;

16.1.21. məlumatın məhdudiyyətləri və onların nəticəyə istiqaməti;

16.1.22. nəticənin etibarlı sayıldığı müddət və ya tarix.

17. Tipik səhvlər

17.1. Ekspert rəylərində aşkar olunan nöqsanlar:

17.1.1. göstəricilərin (malların bazar qiymətinin, icarə haqqının və s.) müəyyən edilmə mexanizminin göstərilməməsi;

17.1.2. istinad mənbələrindən çıxarışların rəyə əlavə edilməməsi;

17.1.3. rəyə əlavə edilmiş mənbələrin hansı dövrə aid olmasının müəyyən edilə bilməməsi;

17.1.4. qiymətlərə təsir edən amillərin, inflyasiyanın, Vergi Məcəlləsinin 14.6.1-ci maddəsinin müddəalarının nəzərə alınıb-alınmaması barədə qeydin olmaması və ya bu amillərin ümumiyyətlə nəzərə alınmaması;

17.1.5. məhdudiyyətlərin rəydə qeyd edilməməsi.

17.2. Mütəxəssis rəylərində aşkar olunan nöqsanlar:

17.2.1. monitorinqin keçirilməməsinin və ya keçirilmiş monitorinqin nəticələrindən istifadə edilməməsinin səbəblərinin göstərilməməsi;

17.2.2. yalnız bir xammal üzrə istehsal həcminin müəyyən edilməsi, onun enerji sərfi və kalkulyasiya sənədlərindəki digər xammal və materiallarla uyğunluğunun araşdırılmaması;

17.2.3. göstəricilərin (istehsal həcminin, itkilərin, material sərfinin, əmək haqqı xərcinin və s.) müəyyən edilmə mexanizminin və istinad mənbələrinin göstərilməməsi;

17.2.4. monitorinqin nəticəsinə dair aktın rəyə əlavə edilməməsi;

17.2.5. metodlar, vasitələr, alətlər, istinad mənbələri, istifadə olunan sənədlər, istehsal prosesi və avadanlığın texniki göstəriciləri barədə məlumatın verilməməsi;

17.2.6. məhdudiyyətlərin rəydə qeyd edilməməsi.

17.3. Digər tipik səhvlər:

17.3.1. inzibati göstəricinin bazar dəyəri kimi, bazar dəyərinin isə vergi bazası kimi təqdim edilməsi;

17.3.2. vergi qanunvericiliyindəki bazar qiyməti ilə qiymətləndirmə standartlarındakı bazar dəyərinin eyniləşdirilməsi;

17.3.3. sual qoyulmadan vergi məbləğinin hesablanması və ya arifmetik hesablamanın hüquqi nəticə kimi təqdim edilməsi;

17.3.4. vergi amortizasiyasının köhnəlmə kimi tətbiqi;

17.3.5. yenidən qiymətləndirmə artımının əmlak vergisinin bazasına daxil edilməsi;

17.3.6. ƏDV və aksiz rejiminin göstərilməməsi;

17.3.7. ölçmə tarixinin vergi dövrü ilə uzlaşdırılmaması, nəticənin vergi dövrləri üzrə bölünməməsi;

17.3.8. internet elanlarının bazar qiyməti kimi qəbul edilməsi və keçmiş dövrlərə tətbiqi;

17.3.9. sonrakı hadisələrin nəticəyə daxil edilməsi;

17.3.10. qeyri-istehsal sərfinin və transformator əmsalının nəzərə alınmaması;

17.3.11. monitorinqlə müəyyən edilmiş xüsusi sərfin dəyişikliklər yoxlanılmadan bütün yoxlama dövrünə tətbiqi;

17.3.12. güc və vaxt metodunun yuxarı həddi əvəzinə əsas nəticə kimi istifadəsi;

17.3.13. ən yüksək nəticənin əsaslandırılmadan seçilməsi (67.6-cı maddə vergi orqanının səlahiyyətidir);

17.3.14. istehsal həcminin satış həcmi ilə eyniləşdirilməsi, hazır məhsul qalıqlarının nəzərə alınmaması;

17.3.15. çeşidlər üzrə bölgünün aparılmaması;

17.3.16. əlaqəli şəxslərə satış qiymətinin pul ifadəsində istifadəsi;

17.3.17. barter əməliyyatında yalnız bir tərəfin əmlakının ölçülməsi;

17.3.18. güzəştli və ya vergiyə cəlb olunmayan hissənin ayrılmaması;

17.3.19. transfer qiymətlərində metodun qiymətləndirici tərəfindən seçilməsi və vergi ödəyicisinin qərarı kimi təqdim edilməsi, funksional təhlil aparılmadan müqayisə obyektlərinin seçilməsi;

17.3.20. hüquqi xarakterli suallara cavab verilməsi;

17.3.21. nəticənin sifarişçinin mövqeyinə uyğunlaşdırılması, xidmət haqqının nəticədən asılı müəyyən edilməsi;

17.3.22. hesablamaların təkrarlana bilməyən formada (yalnız yekun rəqəmlərlə) təqdim edilməsi;

17.3.23. eyni obyekt üzrə fərqli məqsədlər üçün hazırlanmış nəticələrin izahsız fərqlənməsi.

19. Yekun müddəalar

19.1. Metodologiya azı üç ildə bir dəfə, habelə vergi qanunvericiliyində və ya qiymətləndirmə standartlarında əhəmiyyətli dəyişiklik olduqda yenidən nəzərdən keçirilir.

19.2. Metodologiya Qanuna, Vergi Məcəlləsinə, qiymətləndirmə standartlarına və Ümumi yığıncağın təsdiq etdiyi sənədlərə zidd olduqda həmin aktların müddəaları tətbiq edilir.

19.3. Bu redaksiya vergi orqanı ilə razılaşdırıldıqdan sonra əvvəlki redaksiyanı əvəz edir.

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
A nömrəli əlavə

Tapşırığın marşrutlaşdırılması

Sifarişin məzmunu	Ölçülən kəmiyyət	Əsas norma	Nəticənin forması
Əmlak vergisi üzrə mübahisə	Bazar dəyəri və ya uçot dəyəri	VM 196-202	Dəyər göstəricisi və inzibati göstərici ayrıca
Sığortalanmış əsas vəsaitlər	Sığorta tarixinə bazar dəyəri	VM 201.1.1	Dəyər göstəricisi
Balansda əks olunmayan əsas vəsaitlər	Müəyyən tarixlərə dəyər, sual qoyulduqda qalıq dəyəri	VM 197.1.3, 67.1.4	Dəyər göstəricisi, arifmetik hesablama
Torpaq vergisi üzrə mübahisə	Bazar dəyəri, normativ qiymət ayrıca	Torpaq vergisi müddəaları	İki göstərici ayrı-ayrılıqda
Əmlakın əvəzsiz və ya güzəştli verilməsi	Əməliyyatın bazar qiyməti	VM 14	Qiymət göstəricisi, vergi rejimi ilə
Barter əməliyyatı	Hər iki tərəfin əmlakının qiyməti	VM 14, 67.13	İki ayrıca nəticə
Nizamnamə kapitalına qoyuluş	Qoyulan əmlakın dəyəri	Mülki və vergi qanunvericiliyi	Dəyər göstəricisi
Əlaqəli şəxslər arasında əməliyyat	Qol uzunluğu göstəricisi	Transfer qiymətləri müddəaları	Diapazon və ya nöqtə
Qeyri-maddi aktivin ötürülməsi	Aktivin dəyəri və ya royalti dərəcəsi	Transfer qiymətləri müddəaları	Dəyər və ya dərəcə
Səyyar yoxlamada istehsal həcmi	Çeşid və dövrlər üzrə natural həcm, pul ifadəsi	VM 44 və ya 45, 67.1.5, 67.1.8	Rəy: ən ehtimallı qiymət və diapazon
Səyyar yoxlamada bazar qiyməti	Malın (işin, xidmətin) bazar qiyməti	VM 14.6, 14.6.3.3, 44	Ekspert rəyi
Operativ nəzarət, xronometraj	Müşahidə nəticələri	VM 50, 50-1	Akt, rəy
Həbs edilmiş əmlakın satışı	Bazar dəyəri	VM 90.3	Qiymətləndirmə hesabatı
Vergi yoxlaması üzrə retrospektiv tapşırıq	Keçmiş tarixə dəyər və ya qiymət	Yoxlama ilə əhatə olunan dövrün normaları	Retrospektiv nəticə
Şikayət və ya məhkəmə mərhələsi	Əvvəlki rəyin keyfiyyəti	VM 44.10; Qanun	Peşəkar baxış rəyi

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
B nömrəli əlavə

İnzibati göstəricilər və bazar dəyəri matrisi

Meyar	İnzibati göstərici	Bazar dəyəri
Müəyyən edən	Normativ akt və ya dövlət orqanı	Qiymətləndirici
Hesablama qaydası	Normativ düstur və əmsallar	Bazar sübutları və düzəlişlər
Yenilənmə	Normativ aktın qəbulu ilə	Qiymətləndirmə tarixinə
Bazar şəraitinə reaksiya	Gecikmiş və ya yoxdur	Birbaşa
Mübahisə predmeti	Normativ aktın tətbiqi	Nəticənin əsaslandırılması
Hesabatdakı yeri	Giriş məlumatı, mənbə ilə	Ölçmə nəticəsi
Bir-birini əvəz edirmi	Xeyr	Xeyr

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
C nömrəli əlavə

Transfer qiymətləri üzrə iş forması

№	Element	Məlumat
1	Əməliyyatın təsviri və tərəflər	
2	Əlaqəlilik əsası (vergi ödəyicisinin məlumatı)	
3	Funksiyalar	
4	İstifadə olunan aktivlər	
5	Üzərinə götürülən risklər	
6	Müqavilə şərtləri	
7	Bazar və iqtisadi şərait	
8	Seçilmiş metod və onu kimin seçdiyi	
9	Müqayisə obyektlərinin mənbəyi və sayı	
10	Kənarlaşdırılan müqayisə obyektləri və səbəbi	
11	Müqayisəlilik düzəlişləri və kəmiyyəti	
12	Nəticə: diapazon və ya nöqtə, statistik əsası ilə	

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
D nömrəli əlavə

Ekspert (mütəxəssis) müqaviləsinin minimum şərtləri

Vergi Məcəlləsinin 44.1 və 45.3-cü maddələrinə, "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun 9.1-ci maddəsinə uyğun olaraq müqavilədə aşağıdakılar nəzərdə tutulur:

№	Şərt	Məzmun
1	Tərəflər	Vergi orqanı; ekspert (mütəxəssis) və ya qiymətləndirici təşkilat; şəhadətnamənin tarixi və nömrəsi
2	Əsas	Vergi orqanının qərarı (VM 44.3) və ya dəvəti (VM 45.1), tarixi və nömrəsi
3	Statusu	Ekspert (VM 44) və ya mütəxəssis (VM 45)
4	Suallar	Hərfi mətn; hüquqi suallar daxil edilmir
5	Tədqiqat obyekti	Vergiödəyicisi, obyektin ünvanı, yoxlama dövrü
6	Materiallar	Təqdim edilən materialların siyahısı, əlavə material tələbi qaydası (VM 44.4)
7	Obyektə giriş və monitorinq	Baxış və monitorinqin təşkili, iştirakçılar, vergiödəyicisinin nümayəndəsi
8	Rəsmi sorğular	Sorğuların vergi orqanı vasitəsilə göndərilməsi
9	Kompleks qrup	Tərkib, hər üzvün cavabdeh olduğu suallar
10	Müddət	Rəyin təqdim edilmə müddəti, uzadılma əsasları
11	Tələblər	Bu Metodologiyanın tələblərinə cavab verməyən rəyə görə nəticələr
12	Haqq	Məbləğ və ödəniş qaydası; nəticədən asılı olmaması
13	Müstəqillik	Maraqlar toqquşmasının olmaması barədə bəyanat, yaranarsa bildiriş öhdəliyi
14	Konfidensiallıq	Vergi sirri, kommersiya sirri, fərdi məlumatlar
15	Məsuliyyət	Bilə-bilə yanlış rəyə görə məsuliyyət (VM 45.3), zərərin ödənilməsi (VM 45.6)
16	Əlavə və təkrar ekspertiza	İzahat vermək, əlavə suallara cavab vermək öhdəliyi
17	İşçi sənədlər	Saxlanma müddəti, təkrar ekspertizada təqdim edilməsi
18	Mübahisələrin həlli	Qanunvericiliyə uyğun

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
E nömrəli əlavə

Ekspertə qoyulan sualların nümunələri

Məqsəd	Düzgün tərtib
İstehsal həcmi	"20__-20__ yoxlama dövründə müəssisədə çeşidlər üzrə istehsal edilmiş məhsulun həcmi aylar üzrə natural ifadədə nə qədərdir?"
Uçotla fərq	"Hesablanmış istehsal həcmi ilə uçotda əks olunmuş həcm arasındakı fərq aylar üzrə nə qədərdir?"
Pul ifadəsi	"Uçotda əks olunmayan məhsulun aylar üzrə dəyəri vergiödəyicisinin həmin dövrdəki satış qiymətləri ilə (ƏDV-siz) nə qədərdir?"
Bazar qiyməti	"___ tarixə ___ malının Vergi Məcəlləsinin 14-cü maddəsinə uyğun bazar qiyməti nə qədərdir?"
Əsas vəsaitlər	"___ obyektinin 01.01.20__ və 31.12.20__ tarixlərinə bazar dəyəri nə qədərdir?"
Sığorta halı	"Sığorta müqaviləsinin tarixinə əsas vəsaitlərin bazar dəyəri nə qədərdir?"
Arifmetik hesablama	"Müəyyən edilmiş dəyərlər əsasında Vergi Məcəlləsinin 202.1.1-ci maddəsində göstərilən qaydada orta illik qalıq dəyərinin arifmetik hesablaması nə qədərdir?"

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
F nömrəli əlavə

Monitorinq (sınaq-ölçmə işləri) aktının forması

№	Bölmə	Məlumat
1	Aktın tarixi, yeri, nömrəsi	
2	Əsas: vergi orqanının qərarı (dəvəti), tarixi və nömrəsi	
3	Vergiödəyicisi, obyekt, ünvan	
4	İştirakçılar: vergi orqanının nümayəndəsi, vergiödəyicisinin nümayəndəsi, ekspert (mütəxəssis), şahidlər	
5	Monitorinqin proqramı: çeşidlər, ölçülən resurslar, müddət	
6	Avadanlıq və texnoloji xətt (G əlavəsinə istinad)	
7	Ölçmə vasitələri: növ, seriya nömrəsi, dəqiqlik sinfi, transformator əmsalı, yoxlama sənədi, plomb	
8	Başlanğıc göstəricilər: vaxt, sayğaclar, tərəzi, xammal qalığı (fotoşəkil nömrələri)	
9	Son göstəricilər: vaxt, sayğaclar, istehsal edilmiş məhsul (fotoşəkil nömrələri)	
10	Qeyri-istehsal sərfi: boş rejimdə ölçmə, müddət, nəticə	
11	Sərf edilmiş xammal, material, qablaşdırma (çəki, say)	
12	Zay, itki, tullantı	
13	Fasilələr və dayanmalar	
14	Hesablanmış xüsusi sərf (çeşid üzrə)	
15	İştirakçıların qeydləri və etirazları	
16	Əlavələr: fotoşəkillərin siyahısı	
17	İmzalar; imzadan imtina olduqda qeyd	

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
G nömrəli əlavə

Avadanlıq kartı

№	Göstərici	Məlumat	Mənbə
1	Avadanlığın adı və texnoloji təyinatı		
2	Marka, model		
3	İstehsalçı və mənşə ölkəsi		
4	Buraxılış ili, seriya nömrəsi		
5	İstismara verilmə tarixi, inventar nömrəsi		
6	İstismar müddəti		
7	Nominal məhsuldarlıq (vahid/saat)		
8	Elektrik gücü (kVt), yanacaq sərfi		
9	Monitorinqlə müəyyən edilmiş faktiki məhsuldarlıq və yüklənmə		
10	Texniki vəziyyət, yoxlama dövründə dəyişikliklər		
11	İş rejimi: növbələr, saatlar		
12	Fotoşəkillər (ümumi görünüş, fabrik lövhəsi)		

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
H nömrəli əlavə

İstehsal həcminin müəyyən edilməsi və pul ifadəsi: hesablama nümunəsi

Nümunə şərtidir və metodların tətbiq ardıcıllığını göstərir. Obyekt: çörək zavodu, çeşid: 0,5 kq çörək; yoxlama dövrü: 2025-ci il; uçotda əks olunmuş istehsal: 2 400 000 ədəd.

1. M1: elektrik enerjisi sərfi. Təchizatçının məlumatına görə illik sərf 1 150 000 kVt·saatdır. Monitorinqlə müəyyən edilib: iş günlərində qeyri-istehsal sərfi 400 kVt·saat/gün (300 iş günü), qeyri-iş günlərində 180 kVt·saat/gün (65 gün), daxili şəbəkə itkisi 2%, məhsul vahidinə xüsusi sərf 0,30 kVt·saat.

Göstərici	Hesablama	Nəticə
Qeyri-istehsal sərfi, kVt·saat	300 × 400 + 65 × 180	131 700
İstehsala sərf, kVt·saat	1 150 000 − 131 700	1 018 300
Texnoloji sərf, kVt·saat	1 018 300 × (1 − 0,02)	997 934
İstehsal həcmi, ədəd	997 934 / 0,30	3 326 447

2. M3: un balansı. Dövrün əvvəlinə qalıq 40 t, daxilolma 1 100 t, dövrün sonuna qalıq 35 t, sənədlə təsdiq edilmiş digər istifadə 5 t; reseptə görə sərf norması 0,325 kq/ədəd, istehsal itkisi 1,5%.

Göstərici	Hesablama	Nəticə
İstehsala sərf edilmiş un, t	40 + 1 100 − 35 − 5	1 100
İstehsal həcmi, ədəd	1 100 000 × (1 − 0,015) / 0,325	3 333 846

3. M4: qablaşdırma paketləri. Dövrün əvvəlinə qalıq 200 000 ədəd, daxilolma 3 500 000 ədəd, dövrün sonuna qalıq 250 000 ədəd, zay 1,5%, hər məhsula bir paket.

Göstərici	Hesablama	Nəticə
İstifadə edilmiş paketlər, ədəd	200 000 + 3 500 000 − 250 000	3 450 000
İstehsal həcmi, ədəd	3 450 000 × (1 − 0,015)	3 398 250

4. M6: güc və vaxt (yuxarı hədd). Darboğaz avadanlıq (soba) üzrə nominal məhsuldarlıq 1 200 ədəd/saat, faktiki yüklənmə 0,80, iş vaxtı 300 gün × 2 növbə × 8 saat, dayanmalar 5%: T = 4 560 saat; Q = 1 200 × 0,80 × 4 560 = 4 377 600 ədəd.

5. Uzlaşdırma.

Metod	Nəticə, ədəd	Çəki	Çəkinin əsası
M1	3 326 447	0,4	Rəsmi məlumat, monitorinq
M3	3 333 846	0,4	Alış sənədləri, resept
M4	3 398 250	0,2	Qablaşdırılmamış satış ehtimalı
M6	4 377 600	0	Yuxarı hədd, məntiqi yoxlama
Ən ehtimallı qiymət	3 343 767		Çəkili orta

Kənarlaşma: (3 398 250 − 3 326 447) / 3 352 848 = 2,1%, yəni 10%-dən azdır və metodlar bir-birini təsdiq edir. Diapazon: 3 326 447 ilə 3 398 250 ədəd arası. Ən ehtimallı qiymət yuxarı həddən (4 377 600) azdır.

6. Uçotda əks olunmayan istehsal. 3 343 767 − 2 400 000 = 943 767 ədəd (diapazon 926 447 ilə 998 250 ədəd arası). Məhsul tez xarab olduğundan hazır məhsul qalıqları sıfır, uçotda əks olunmayan istehsal satılmış hesab edilir (7.10-cu bənd üzrə fərziyyə rəydə açıqlanır).

7. Pul ifadəsi. Həcm rüblər üzrə elektrik enerjisinin rüblük sərfinə mütənasib bölünür; qiymət vergiödəyicisinin həmin rübdə əlaqəli olmayan alıcılara faktiki satış qiymətinin çəkili ortasıdır (8.2.1-ci bənd), ƏDV-siz.

Rüb	Enerji sərfinin payı	Həcm, ədəd	Qiymət, AZN	Dəyər, AZN
I	24%	226 504	0,60	135 902
II	25%	235 942	0,61	143 924
III	25%	235 942	0,63	148 643
IV	26%	245 379	0,64	157 043
Cəmi	100%	943 767	0,6204	585 513

Cəm yuvarlaqlaşdırılmamış rəqəmlərdən hesablanıb. Diapazon (orta qiymətlə): 574 768 ilə 619 314 AZN arası. Sual qoyulduqda maya dəyəri ilə ifadə (kalkulyasiya üzrə 0,48 AZN/ədəd) ayrıca verilir: 453 008 AZN; o satış dəyəri ilə cəmlənmir.

8. Rəydə verilən cavab. “Yoxlama dövründə çörəyin istehsal həcmi 3 343 767 ədəddir (diapazon 3 326 447 ilə 3 398 250 ədəd arası); uçotda əks olunmuş həcmdən 943 767 ədəd çoxdur; bu həcmin vergiödəyicisinin həmin dövrdəki satış qiymətləri ilə dəyəri ƏDV-siz 585 513 AZN-dir (diapazon 574 768 ilə 619 314 AZN arası). Vergi öhdəliyi barədə nəticə verilmir.”

Vergi məqsədləri üçün qiymətləndirmə və
vergi nəzarəti tədbirlərində ekspert
(mütəxəssis) rəyləri üzrə Metodologiyaya
I nömrəli əlavə

Tələblərə uyğunluq matrisi

Tələblərin bəndi	Tələbin qısa məzmunu	Metodologiyada
1.1	Tədqiqatın yeri, vaxtı, tarixi və əsası	14.1 (bölmə 1)
1.2	Sifarişçi orqan	14.1 (bölmə 2)
1.3	İcraçı, xüsusi biliyin təsdiqi	5.2, 14.1 (bölmə 3)
1.4	Suallar	5.3, 14.1 (bölmə 4), E əlavəsi
1.5	Obyektin və materialların təsviri	7.2, 14.1 (bölmə 5)
1.6	Digər iştirakçılar	5.4, 14.1 (bölmə 6)
1.7	Metodlar, vasitələr, alətlər	7.4.4, 7.5, 14.1 (bölmə 7)
1.8	İstinad mənbələri	13.3, 14.1 (bölmə 8)
1.9	Tədqiqatın təsviri və əsaslandırılması	14.1 (bölmə 9)
1.10	Nəticə	14.1 (bölmə 10), 14.3
2.1-2.3	Ətraflı, aydın təsvir, məntiqi ardıcıllıq, elmi və metodoloji prinsiplər	6, 7.1.7, 14.1
2.4	Rəsmi mənbələrə istinad və çıxarışların əlavə edilməsi	13.1, 13.3
2.5	Nəticənin tamlığı və konkretliyi	14.3
3	Yalnız internet elanları ilə kifayətlənməmək, rəsmi müraciət	9.3, 13.2, 13.4
4	Elanların keçmiş dövrə tətbiq edilməməsi, inflyasiya, VM 14.6.1	3.3, 8.7, 12.3, 13.4
5	Mənbəyi bəlli olmayan məlumat, uyğunsuzluq və qeyri-müəyyənlik yolverilməzdir	7.1.6, 13.5
6.1	Avadanlıq və texniki göstəricilər	7.3, G əlavəsi
6.2	Həcmin xüsusi sərf əsasında müəyyən edilməsi	7.1.2, 7.5
6.3	Çeşidlər üzrə monitorinq	7.1.3, 7.4.1
6.4	Sayğacların fotoşəkilləri, qeyri-istehsal sərfi, akt	7.4.5-7.4.7, F əlavəsi
6.5	İtkilər və qeyri-istehsal ehtiyacları	7.6
6.6	Monitorinq mümkün olmadıqda səbəb və nəzəri üsullar	7.4.8
6.7	İş rejimi, fasilələr, növbələr, dayanmalar, sahə xüsusiyyətləri	7.7, 7.11

Tələblərin bəndi	Tələbin qısa məzmunu	Metodologiyada
Çatışmazlıqlar 1.1-1.5	Ekspert rəylərindəki nöqsanlar	17.1, J əlavəsi
Çatışmazlıqlar 2.1-2.6	Mütəxəssis rəylərindəki nöqsanlar	17.2, J əlavəsi